**UOT 338.436**

***Arzu Nurəddin qızı RÜSTƏMOVA***
***i.f.d., Azərbaycan Kooperasiya Universiteti***

# SOSİAL SFERANIN İNKİŞAF AMİLLƏRİ VƏ İDARƏ EDİLMƏSİ

***Xülasə***

Azərbaycan Respublikası hal-hazırda bazar iqtisadiyyatı dönəmində sosial-iqtisadi islahatların növbəti mərhələsindədir.

Azərbaycan Prezidenti İ.Əliyevin rəhbərliyi ilə ölkədə bir çox mürəkkəb vəsifələr həll edilmişdir. Ölkədə vətəndaşlığın maddi vəziyyəti və psixologiyasında ciddi dəyişikliklər baş vermişdir. Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, biznes şəraitinin sadələşdirilməsi və onun aparılması imkanlarının yaxşılaşdırılması sayəsində Azərbaycan vətəndaşlarının imkanlarının genişləndirilməsi ciddi şəkildə nəzərə alınması ümdə məsələlərdən biridir.

**Tədqiqatın məqsədi** – sosial sferanın inkişafının əsas tendensiyaları və amilləri, dövlət tərəfindən əhaliyə göstərilən sosial xidmətlərdən ibarət olmasıdır. Azərbaycan dövlətinin sosial siyasəti səciyyələnir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində ümumi yeniliklər, təhlillər, sistemli yanaşma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti -** sosial sferanın maliyyə təminatı, maddi-texniki problemləri əsas götürülmüşdür.

**Tədqiqatın nəticəsi** – nəticədən belə qənaətə gəlmək olar ki, insan potensialının inkişaf etdirilməsində sosial sfera sahələrinin genişləndirilməsi, əhalinin həyat keyfiyyətinin yüksəldilməsi, Azərbaycan xalqının mədəni və mənəvi dəyərlərinin qorunub saxlanması, artırılması üçün iqtisadi şəraitin yaradılması ölkəmiz üçün də faydalı ola bilər

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – ölkə rəhbərliyi tərəfindən qarşıya strateji vəzifələrin yerinə yetirilməsinin önəmli olması, Azərbaycanda ən yaxşı perspektivdə müasir, dinamik inkişaf edən sosial sferanı yaratmaq nəzərdə tutulmuşdur.

***Açar sözlər: sosial sfera, insan potensialı, strateji vəzifələr, maddi-texniki problemlər.***

## *Giriş*

Azərbaycan Respublikası Prezidenti İ.Əliyev tərəfindən məqsədli dövlət proqramlarının həyata keçirilməsi XX əsrin 90-cı illərinin ortalarından XXI əsrin ikinci onilliklərinədək ölkə iqtisadiyyatının əhəmiyyətli dərəcədə yüksəlişini həyata keçirməyə imkan vermişdir. Ötən 27 il ərzində sosial-iqtisadi sferada dərin və səmərəli dəyişikliklər baş vermişdir.

Azərbaycanın bundan sonra da qarşısında duran sosial-iqtisadi vəzifələri həll etmək və yüksək islahat templərinin saxlanması gərəkdir.

Ölkədə “Azərbaycan – 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri” adlı proqram sənədi qəbul edilib. Bu proqrama uyğun olaraq, insan kapitalının inkişafı ilə bağlı sektorlar üzrə islahatlar mütləq prioritetlər kimi müəyyən edilmişdir. Bu ilk növbədə sosial sfera sahələri – səhiyyə, mədəniyyət, bədən tərbiyəsi və idman, turizm sahələridir.

Elm və innovasiyalar onlarla sıx bağlıdır. Elmi iş təhsil fəaliyyətinə güclü təsir göstərir. Tədrisin keyfiyyəti əsasən elmi və təhsil proseslərinin birləşməsi ilə müəyyən edilir.

**Sosial sfera sahələrinin fəaliyyət növlərinin təhlili**

Aparılan tədqiqatın məqsəd və vəzifələrindən, iqtisadi fəaliyyət növlərinin şərhində müxtəlif konsepsiya və meyarların istifadəsindən asılı olaraq sahələr üzrə fərqli qruplaşdırmalar təklif oluna bilər.

Sosial sfera müxtəlif sahələrin məcmusudur. Bunlar ümumi iki qaynaqda birləşdirilir. Birincisi: bu sahələr xidmət şəklində xüsusi iqtisadi rifah istehsal edirlər. Xidmətin təbiətinin spesifikliyi bu sahədəki iqtisadi münasibətlərə və təsərrüfat şəraitinə xüsusi bir xarakter verir. İkincisi: bu sahələr

onların fəaliyyətinin sosial yönümlülüyü və insan amilinin əhəmiyyətli rolu ilə seçilirlər. Əgər birinci qaynaq sosial sferanın fəaliyyətinin təşkilati-texniki cəhətini əks etdirirsə, ikinci – sosial iqtisadi cəhəti səciyyələndirir.

Rəsmi beynəlxalq statistikanın təcrübəsində ölkə iqtisadiyyatının ilkin (kənd və meşə təsərrüfatı, ovçuluq və balıqçılıq), ikinci (emal, dağ-mədən sənayesi, tikinti, elektrik enerjisi, su və qaz hasilatı) və üçüncü sektor (xidmət sferası sahələr) üzrə üç sektor bölgüsü meyarları geniş istifadə olunur.

Son iki yüzilliyin ictimai inkişaf praktikası göstərir ki, aqrar dövrdə sivilizasiyanın inkişafı üçün ilkin sektor, sənaye dövrü üçün ikinci sektor, post-sənaye cəmiyyətinin təşəkkülü dövrü üçün isə üçüncü sektor aid edilirdi. Lakin xidmət sferası sahələrinin müxtəlif qrupları post-sənaye cəmiyyətinin təşəkkül dinamikasını müxtəlif cür əks etdirdiyi üçün elmi ədəbiyyatda müasir sivilizasiyasının inkişafının obyektiv xarakteristikasını vermək məqsədilə, xidmət sferasının özünü üç sektora bölmək təklif olunur: sırf üçüncü (maddi istehsala servis xidmətləri), üçüncü sektor (ticarət, maliyyə, sığorta, daşınmaz əmlaka xidmət üzrə əməliyyatlar) və beşinci sektor (elmi informasiya, təhsil, işgüzar və dövlət idarəçiliyi üzrə xidmətlər).

"Sosial sfera" anlayışı ilə yanaşı, elmi ədəbiyyatda tes-tes "sosial infrastruktur" anlayışından istifadə olunur. Bir sıra alimlərin fikrincə bu anlayış əhalinin rifahının, xidmətlərin həyat keyfiyyətinin müvafiq səviyyəsini bilavasitə maddi istehsal sferasından kənarda təmin edən əhalinin həyat sahələri ilə bağlı tədqiqat və praktiki fəaliyyət sahəsini daha dəqiq qeyd etmək cəhdi kimi ifadə olunub. Yəni qeyri-istehsal sferasından da söhbət gedir. Qeyri-istehsal sferasına 2 sahələr qrupu aid edilir:

1) Xidmətləri cəmiyyətin ümumi, kollektiv tələbatlarını ödəyən sahələr; yerin təkinin kəşfiyyatı və geologiyası; su təsərrüfatı (maddi istehsala aid edilən fəaliyyət növlətindən başqa) idarəetmə, elm və elmi xidmət, ictimai təşkilatlar, kreditləşmə və dövlət sığortası;

2) Əhalinin mədəni məişət və sosial tələbatını ödəyən sahələr; mənzil-kommunal təsərrüfatı; məişət xidməti, xalq təhsili; mədəniyyət və incəsənət; sərnişin nəqliyyatı və rabitə (qeyri-istehsal sferaya xidmət hissəsində); səhiyyə, bədən tərbiyəsi və sosial sığorta.

Artıq qeyd edildiyi kimi, maddi istehsal sferasından fərqli olaraq qeyri-istehsal sferası iş prosesində maddi nemətlər yaradılmayan bütün fəaliyyət növlərini əhatə edir. Qeyri-istehsal sferasında çalışan işçilərin əməyinin təsir obyekti təbiət onun qüvvələri deyil, insanın özü və insanların ictimai münasibətləridir. Qeyri-istehsal sferasında maddi nemətlər yaradılmır, fəaliyyət xidmət şəklində özünü göstərir.

**Sosial sferanın idarəetmə orqanları**

Sosial sferanın strukturunun mürəkkəbliyi kifayət qədər inkişaf etmiş idarəetmə sisteminin yaradılması zərurətini şərtləndirir. Bu zaman nəzərə almaq lazımdır ki, idarəetmənin başlıca subyekti qismində dövlət hakimiyyəti orqanları, habelə ictimai özünü idarəetmə orqanları çıxış edir.

Sosial sferanın sahələrinin idarəçiliyi sahəsində səlahiyyətlər mərkəzi və regional (yerli) hakimiyyət orqanları arasında bölünür.

Sosial sferanın dövlət, mərkəzi idarəetmə orqanlarının funksiyaları aşağıdakı kimi göstərilmişdir. [4 səh. 60-61].

Sosial sferanın idarəetməsinə aid məsələlərin böyük əksəriyyəti regional səviyyədə regional (yerli) orqanlar tərəfindən həll olunur.

İdarəetmə obyekti kimi regionun sosial sferasının xüsusiyyətləri həm mədəniyyətin inkişafını, həm təbii –iqlim, coğrafi şəraitin spesifik müxtəlifliyi ilə, həm də sosial və məişət tələbatlarının, təhsilin alınması ilə bağlı tələbatların sağlamlığın qorunmasının transformasiyası ilə şərtləndirir və bütün bunlar konkret regionun fəaliyyət göstərməsinin səciyyəvi şəraitində şəxsiyyətin sosiallaşması prosesində baş verir.

Sosial sferanın inkişafına həsr olunmuş proqramların işlənib hazırlanmasında başlıca rol regionların icra hakimiyyəti orqanlarına məxsusdur. Qərarların qəbul edilməsi üçün əsas sosial sferanın inkişaf göstəricilərinin normativ göstəricilərlə tutuşdurulması, yaxud sosial sferanın müəyyən sahəsinin xarakteristikası üçün qəbul edilmiş faktiki göstəricinin müəyyənləşdirilməsi ola bilər.




*Sosial sferanın idarəetmə orqanları və funksiyaları*

Dövlət hakimiyyəti orqanlarından başqa sosial sferanın idarəetmə subyekti qismində regionda fəaliyyət göstərən müxtəlif sosial institutlar çıxış edir.

Dövlət orqanları regionda baş verən sosial proseslərin vektoruna, regional sosial siyasətin hər bir subyektinə təsir göstərməlidir.

**Sosial tənzimləmənin maliyyə mexanizmləri**

Sosial inkişaf, onun tənzimlənməsi maliyyə imkanları ilə bağlıdır. Əhali və sosial sahələr maliyyə resursları olmadan genişlənib inkişaf edə bilməz. Sosial sahələr və əhali maddi istehsal sahəsinə xidmət göstərməklə onun səmərəliliyini artırır. Buna görə də sosial sahələrdə əhalinin tələbatı üşün maddi istehsalda yaranan gəlirlərin bölgüsü və yenidən bölgüsü hesabına maliyyə imkanları formalaşır. Sosial obyektlərin inkişafı üçün lazım olan və bütün mənbələr hesabına formalaşan pulun miqdarına sosial sahələrin inkişafının maliyyə resursları deyilir. Bu maliyyə resursları forma, daxilolma mənbələri və xərclərinə görə müxtəlif istiqamətlər kəsb edir. Uyğun olaraq idarəetmə və tənzimləmə xüsusiyyətlərinə malikdir. Maliyyə resursları, onun formalaşması mənbələri mərkəzləşmiş formada təşkil olunur. Mərkəzləşmiş formada sosial inkişaf maliyyə resursları dövlət büdcəsi formasında təşkil olunur. Dövlət büdcəsinin gəlirləri, onun strukturu xalq təsərrüfatının tələbatına uyğun olaraq, həmçinin sosial tələbat və sosial sahələrin inkişafı üçün lazım olan xərclərə görə planlaşdırılır, tənzim olunur. Sosial inkişafın maliyyə mənbəyi respublikanın milli gəlirini təşkil edir. Müasir şəraitdə bazar iqtisadiyyatı, sahibkarlıq inkişaf etdikcə sosial inkişafın maliyyə imkanları mənbələri mərkəzləşmiş formada daha çox ayrı-ayrı sahibkarların, səhmdar cəmiyyətin hesabına formalaşır.

**Təhsil sisteminin sosial – iqtisadi funksiyası və onun idarə olunması**

Təhsil sferası qeyri-istehsal sahəsi olub əhalinin, iqtisadiyyatın tələbatına uyğun ixtisaslı kadrların hazırlanması məqsədini güdür. Təhsil proses kimi ardıcıl və kompleks sistemli təşkil olunur. Təhsil sistemi formalaşır. Bu sistemin daxili elementləri ibtidai, orta, ali təhsil müəssisələri olmaqla vahid məqsədə yönəldilir. Müasir şəraitdə təhsil sahəsi ümumi iqtisadi sistemin, o cümlədən istehsal elmi-texniki tərəqqi (ETT) ixtisaslı, dünyagörüşlü kadrların yetişdirilməsi, hazırlanması üçün zəruri olan peşə biliklərinin verilməsinə xidmət edir. Təhsil sistemi ümumi iqtisadi sistemin tərkib hissəsi olmaqla bütün ölkədə əhalinin sayı, onun məşğulluğu, ərazicə yerləşməsi və ölkənin iqtisadi istiqamətlərində daha çox inteqrasiya problemlərini həll etmək üçün inkişaf etdirilir.

Təhsilin islahat proqramı bu sahənin müasir standartlara uyğun təşkili və idarə olunması, kadrların dünya ölkələri tərəfindən qəbul olunması və təhsilin insanların həyat səviyyəsindəki rolu ilə

müəyyənləşir. Təhsil sferası bir sahə olaraq ictimai əmək bölgüsündə və ya bazarın formalaşmasında müəyyən xüsusi çəkisinə görə hər bir ölkədə müəyyən rol oynayır. Təhsil sahəsində işləyənlərin sayı, onların əməkhaqqısı, təhsilə ayrılan vəsait, təhsil alanların ümumi sayı, təhsilin mülkiyyət formalarlına görə bölgüsü və nəticədə birbaşa və dolayısı yolla təhsilin ÜDM-in, iş qüvvəsinin, istehlakın formalaşmasında rolu bu sferanın iqtisadi rolunu müəyyən edir.

İ.e.d. Ə.Əlirzayevin fikrincə, təhsilin sosial mənası isə intellektual kapitalın formalaşmasıdır. Hər bir şəxs təhsili həyat fəaliyyətinin ünsürü kimi seçməklə özünün peşə biliyinin və intellektual səviyyəsinin yüksəldilməsi üçün özündə ehtiyac yaradır. Təbii ki, bu ehtiyaclar bir sıra sosial – iqtisadi amillərdən asılıdır, o cümlədən əhalinin yaşayış səviyyəsindən, yaşayış tərzindən, məskunlaşmanın coğrafi-iqtisadi mövqeyindən və təhsil almış şəxsin nəticələrindən asılıdır. [5. s. 152-153]

Təhsil sisteminin əsas vəzifəsi xalq təsərrüfatının, iqtisadiyyatın ayrı-ayrı sahələri üçün ixtisaslı kadr hazırlamaq və mənəvi sosial inkişaf etmiş intellektual səviyyəli insanların formalaşdırılmasına şərait yaratmaqdır. Təhsil sistemi öz mahiyyəti ilə bir tərəfdən iqtisadi əhəmiyyət kəsb edir, onun iqtisadi sahələri mövcuddur. Digər tərəfdən isə sosial-mənəvi aspektlərə malikdir. Təhsilin sosial-mənəvi aspektləri əhalinin sosial inkişafının mənəvi dəyərinin artmasına təsir etməkdir.

### *Nəticə*

1. Sosial xidmətlərin keyfiyyətinin əlçatmaz səviyyəsinin kifayət edə biləcək dərəcədə yaxşılaşdırılmasının nəzərdə tutulması.
2. Azərbaycan xalqının mədəni və mənəvi dəyərlərinin qorunub saxlanılması üçün iqtisadi şəraitin yaradılması.
3. İnsan kapitalının sürətli inkişafı, sosial mühitin, millətin sağlamlığının keyfiyyətinin yaxşılaşdırılması.

### ƏDƏBİYYAT

1. Azərbaycan - 2030: Sosial – iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı.
2. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2011-2015-ci illər)
3. Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı (2008-2015-ci illər)
4. T.Rəhmanov. Sosial sfera və sosial siyasət.
5. Ə.Əlirzayev. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti), Bakı – 2010 səh.152-15

***Арзу Нураддин кызы Рустамова***
***Азербайджанский Университет Кооперации, д.ф.э.***

### Факторы развития и управления социальной сферы

***Резюме***

Азербайджанская Республика в настоящее время находится на очередном этапе социально-экономических реформ в эпоху рыночной экономики.

Под руководством Президента Азербайджана И.Алиева в стране решены многие сложные задачи. Серьезные изменения произошли в финансовом состоянии и психологии гражданства в стране. Усиление борьбы с коррупцией, упрощение условий ведения бизнеса и улучшение возможностей для его ведения, расширение возможностей граждан Азербайджана является одним из основных вопросов, над которыми необходимо серьезно подумать.

**Цель исследования** - основные тенденции и факторы развития социальной сферы, которая состоит из социальных услуг, предоставляемых государством населению. Характеризуется социальная политика Азербайджанского государства.

**Методология исследования** - в работе использовались общие новшества, методы анализа и системного подхода.

**За основу взято прикладное значение исследования** - финансовое обеспечение социальной сферы, материально-технические проблемы социальной сферы.

**Результат исследования** – из результата можно сделать вывод о расширении направлений социальной сферы в развитии человеческого потенциала, повышении качества жизни населения, создании экономических условий для сохранения культурные и духовные ценности азербайджанского народа могут быть полезны для нашей страны.

**Оригинальность и научная новизна исследования** - важность выполнения руководством страны стратегических задач, создания в Азербайджане современной, динамично развивающейся социальной сферы в наилучшей перспективе.

***Ключевые слова: социальная сфера, человеческий потенциал, стратегические задачи, материально-технические проблемы.***

***Arzu Nuraddin Rustamova***
***Azerbaijan Cooperation University***
***Doctor of Philosophy in Economics***

## Social sphere development factors and management

***Summary***

The Republic of Azerbaijan is currently in the next stage of socio-economic reforms in the era of market economy

Under the leadership of the President of Azerbaijan I. Aliyev, many complex tasks have been solved in the country. Serious changes have taken place in the financial condition and psychology of citizenship in the country. Strengthening the fight against corruption, simplifying business conditions and improving the opportunities for conducting it, expanding the opportunities of Azerbaijani citizens is one of the main issues to be seriously considered.

**The purpose of the research** - is the main trends and factors of the development of the social sphere, which consists of social services provided by the state to the population. The social policy of the state of Azerbaijan is characterized.

**Methodology of the research** - general innovations, analysis and systematic approach methods were used in the research work.

**The applied importance of the research** - financial provision of the social sphere, material and technical problems of the social sphere are taken as the basis.

**The result of the research** - from the result, it can be concluded that the expansion of the social sphere areas in the development of human potential, the improvement of the quality of life of the population, and the creation of economic conditions for the preservation of the cultural and spiritual values of the Azerbaijani people can be useful for our country.

**The originality and scientific novelty of the research** - the importance of the fulfillment of strategic tasks by the country's leadership, and the creation of a modern, dynamically developing social sphere in Azerbaijan in the best perspective.

***Key words: social sphere, human potential, strategic tasks, material and technical problems.***